

# İşinin vurğunu

***Quba Rayon Mərkəzi Kitabxanasının oxu zalına gələn hər kəs mehriban simalı, diqqətcil bir qadınla qarşılaşmaya bilməz. Ömrünün gənclik gülzarına qar ələnmiş bu qadın oxu zalında çalışan Əzizə xanım Allahverdiyevadır. Gündə onlarla oxucunu qayğıkeşliklə yola salan Əzizə xanım öz peşəsini ürəkdən sevənlərdəndir.***

Oxu zalında cəlbedici səliqə- səhman məhz onun əlləri ilə yaradılmışdır. Bu günün tələbkar oxucusunu razı salmaq asan olmasa da, Əzizə xanım hər bir çətinliyi asanlıqla aradan qaldırmağa qadir insandır. Məhz bu işgüzarlığın nəticəsidir ki, hamı onun yaxşı işləməsindən danışır, ağız dolusu tərifləyir. Mən Əzizə xanım barəsində Quba Rayon MKS-in direktoru Nəzər Əsədullayevin fikrini öyrənmək istədim. O dedi:

-Xalqımızın gözəl bir kəlamı var: "Hansı sənətin sahibi olursan ol, çalış yaradandan ol, bütövündən ol, kamilindən ol. Bir sözlə, sənətinin peşəkar sənətçisi, kamil ustadı ol." Dahi Nizaminin sözləri ilə desək: "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan." Əzizə xanım işinin mahir bilicisidir. Onu başqalarından fərqləndirən əsas cəhətlər səmimiliyi, işgüzarlığı, əmək intizamını pozmaması, verilən tapşırıqları vaxtında və layiqincə yerinə yetirməsidir. O, mədəniyyət sahəsində 45 ildən çoxdur ki, çalışır. Onun işindən çox razıyam.Bu vaxt kitabxananın ən cavan işçilərindən olan Bilqeyis Salmanova söhbətə qarışır:

-Əzizə xanım bizim fəxrimizdir. Biz gənclər həmişə ondan nümunə götürürük. İşləməyi, oxucularla davranmağı ondan öyrənirik. Onun zəngin iş təcrübəsi bizim üçün ikinci məktəbdir.

Tanıyanların haqqında xoş sözlər dediyi Əzizə xanım kimdir? Gəlin, onun sadə həyat yoluna birlikdə nəzər salaq.

O, 1934-cü ildə Quba şəhərində fəhlə ailəsində dünyaya göz açmışdır. Şəhərdəki 2 saylı orta məktəbi bitirdikdən sonra Bakıdakı keçmiş N.K.Krupskaya adına Kitabxanaçılıq Texnikumuna daxil olmuşdur. 1960-cı ildə texnikumu bitirdikdən sonra rayonun Barlı, Püstəqasım kənd kitabxanalarında, Quba şəhər uşaq kitabxanasında, Qırmızı qəsəbə kitabxanasında müxtəlif vəzifələrdə işləmişdir. Əmək veteranıdır. Arzusunu soruşduq. Dünyanı salamat, insanları xoşbəxt görmək istədiyini bildirdi.

***Biz də bu sadə peşə adamına, yaşı 70-i ötmüş anaya xoşbəxtlik, can sağlığı, işlərində uğurlar arzuladıq.***

**Sabir Şeyda,**
**Qubadakı "Ay işığı" ədəbi məclisinin üzvü, şair**